# Azərbaycan - Makedoniya münasibətləri

**Qısa tarixi məlumat:**

Makedoniya Azərbaycan Respublikasının müstəqilliyini 25 iyun 1995-ci ildə tanımış və 28 iyun 1995-ci ildə iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. **28 sentyabr 2011-ci il** tarixində Azərbaycanın Türkiyədə, eyni zamanda Makedoniyada səfiri F.Bağırov etimadnaməsini təqdim etmək üçün Makedoniyada səfərdə olmuşdur.

Makedoniya Respublikasının iqamətgahı Ankarada olmaqla, Azərbaycan Respublikasındakı səfiri Qoran Taskovskidir. **18 aprel 2013-cü il** tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Makedoniyanın ölkəmizə təyin olunmuş səfiri Qoran Taskovskinin etimadnaməsini qəbul etmişdir.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər:**

**Dövlət başçıları:**

2012-ci il 28 iyun-1 iyul - Makedoniya Prezidenti Georgi İvanovun Krans Montana Forumu çərçivəsində işgüzar səfəri

**Hökumət başçıları:**

2013-cü il 18-20 aprel - Baş nazir Nikola Qruevskinin rəsmi səfəri

**Nazirlər:**

2007-ci il 28-29 iyun - Xarici işlər naziri E.Məmmədyarovun NATO-nun Avro-Atlantik Tərəfdaşlıq Şurası çərçivəsində Təhlükəsizlik Forumunda iştirak etmək məqsədilə səfəri

2013-cü il 15-16 sentyabr - Makedoniya Respublikasının Baş nazirinin müavini və maliyyə naziri Zoran Stavrevskinin rəsmi səfəri

**Parlamentlərarası əlaqələr:**

Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan-Makedoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Asim Mollazadədir.

**Müqavilə-hüquq bazası:**

Azərbaycan Respublikası ilə Makedoniya arasında 4 sənəd imzalanmışdır.

***Son yenilənmə tarixi: 17.09.2014***

\